# GİRİŞ

Ramazan Allahın seçib müqəddəs etdiyi qüdsi bir zaman dilimidir. "*İnsanlara doğru yolu göstərən, bu yolu açıq dəlilləri ilə aydınlaşdıran və (haqqı batildən) ayıran (Quran) ramazan ayında nazil edilmişdir*" ("Bəqərə" surəsi, 2/185). Və yenə Ramazan ayı "Cənnət qapılarının axıracan açıldığı, Cəhənnəm qapılarının bağlandığı və azğın şeytanların zəncirə vurulduğu bir aydır".[1]

Allah-Təala (*c.c.*) "*Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib edildiyi kimi, sizə də vacib edildi ki, (bunun vasitəsilə) siz pis əməllərdən çəkinəsiniz!*" ("Bəqərə" surəsi, 2/183) ayəsi ilə müqəddəslik bəxş etdiyi bu bərəkətli zaman dilimində oruc tutmağı müsəlmanlara fərz buyurmuşdur. Oruc yeddi, yetmiş, yeddi yüz və daha çox savab gətirən gözəl əməllərdən, ibadətlərdən fərqlənir. Qüdsi bir hədisdə Uca Allahın: "Oruc Mənim üçündür. Bəndəm Mənim üçün şəhvətini, yeməyini tərk etdi. Mən də onu (istədiyim kimi) mükafatlandıracağam[2]", – sözləri ilə təltif etdiyi ibadətdir.

Oruc "Oruclunun ağız qoxusu qiyamət günündə Allah qa-

1 Buxari, "*Savm*", 5.
2 Buxari, "*Savm*", 2, Müslim, "*Siyam*", 164

tında müşk qoxusundan daha xoşdur”[3] bəyanı ilə inananları bu mükafata cəzb və cəlb edən bir əməldir. Halbuki, oruc tutanın ağız qoxusu aclığından irəli gəlir. Buna baxmayaraq, hədisdə buyurulur ki, qiyamət günü Allah qatında bu qoxu müşk-ənbərdən daha gözəl, daha nəfis mükafatlara vəsilə olacaq. Bəli, mələklər Allaha qulluq vəzifəsini yeri-göyü lərzəyə sala-sala yerinə yetirməyi sevdikləri kimi, bəzi qoxulardan da xoşlanırlar. Onlar gül qoxusundan çiçək qoxusuna, müşkdən ənbərə kimi gözəl qoxulardan ləzzət alırlar. Mələklər aləmində gözəl qoxular sirli xəzinələrin açarıdır. Oruclunun ağız qoxusu da bu gözəl qoxular arasındadır.

Oruc “Kim Allah yolunda bir gün oruc tutsa, Allah da onunla atəş arasına səma ilə yer arası genişliyində bir xəndək qoyar”[4] və ya “Sənə (Əbu Ümaməyə) orucu tövsiyə edirəm, çünki onun tayı-bərabəri yoxdur”[5] hədislərində dəyəri bildirilən müqəddəs ibadətdir. Həmçinin Allah Rəsulu (*s.a.s.*) buyurduğu kimi, Cənnətin Rəyyan adlı qapısı sırf oruc tutanlar üçün ayrılmışdır ki, bu da onlara ilahi bir mükafatdır.

Bu müqəddəs və bərəkətli ayda oruc tutmaqla yanaşı, Quran oxumaq, sədəqə və iftar vermək kimi saleh əməllərə də qat-qat savab veriləcəyini Peyğəmbərimiz (*s.a.s.*) bəyan etmişdir: “Kim bir orucluya iftar versə, ona oruc tutan qədər savab yazılar. Üstəlik, oruclunun savabından da heç bir şey azalmaz”.[6]

---

3 Buxari, “*Savm*”, 9
4 Tirmizi, “*Cihad*”,
5 Nəsai, “*Siyam*”, 43
6 Tirmizi, “*Savm*”, 82; İ. Macə, “*Siyam*”, 45

## ORUCA DAİR

### *1. Oruc İslamın şərtlərindən biridir*

Peyğəmbərimizin (*s.a.s.*): "İslam beş özül üzərində bina edilmişdir"[7] - deyib sadaladığı əsaslar arasında oruc da vardır. Buna görə də: "müsəlmanam" - deyib oruc tutmayanlar, əfsuslar olsun ki, bu din binasının təməl sütunlarından birini öz əlləri ilə sökürlər. Əlbəttə ki, bünövrəsi möhkəm olmayan bir bina da çox davam gətirməz.

"Din bir bütövdür, tamdır, onu parçalayıb bölmək, hissələrə ayırmaq olmaz. Dini bir ağaca bənzətsək, etiqad və inanc məsələləri onun kökü, ibadətlər qol-budağı, əməllər çiçəkləri, çətinliklər qoruyucusu, dua və zikrlər də onu altdan, üstdən bəsləyən ünsürlərdir". Bu səbəbdən hər bir müsəlman Allah qatında tayı-bərabəri olmayan bu əməllə şərəflənməyə borcludur.

### *2. Oruc Allahın rübubiyyətini[8] xatırladır*

Qəflət və unutqanlıq içində ömür sürən, gözündə hər şey adiləşən, Rəbbin ehsan etdiyi nemətləri görməyən, qədir-qiymətini dərk etməyən və nəticə olaraq, şükrü tamam yaddan çıxaran insanlar Ramazanın gəlişi ilə və Rəbbin "*Oruc tutun*" əmrini yerinə yetirməklə nizami bir orduya çevrilir. Axşam iftar süfrələri ətrafında Rəbbin "Yeyin" əmrini ibadət şüuru ilə gözləmələri təqdir və hörmətə layiq bir mənzərədir. Beləliklə, bəndə bir daha xatırlayır və anlayır ki, o nemətlərin əsl sahibi Uca Allah, özü isə Rəbbin möhtac quludur.

7 Buxari, "*İman*", 1; Müslim, "*İman*", 19
8 Haqq-Təalanın hər zaman, hər yerdə hər varlığın ehtiyaclarını təmin etməsi.

### *3. Oruc Allahın nemətlərinə bir şükürdür*

Oruc Quranın ifadəsi ilə desək, saymaqla bitib tükənməyən nemətləri ("İbrahim" surəsi, 14/34) bizlərə lütf edən Rəbbimizə bir şükürdür. Əslində, ibadətlərin hamısı bu qayəyə xidmət etmək üçün əmr edilmişdir. Ancaq bunların içərisində orucun məxsusi yeri var. Bir qüdsi hədisdə buyurulduğu kimi o, "Oruc Mənim üçündür, Mən də onu (dilədiyim kimi) mükafatlandıracağam"[9] iltifatına layiq görülmüş bir ibadətdir.

Eyni zamanda oruc sayəsində varlı, kasıb, kişi, qadın – hər kəs əlində olan az və ya çox nemətlərin qədrini daha yaxşı bilir. Bir parça quru çörəklə qarnını doyuranlar da, gündə üç dəfə ləziz süfrələrə oturanlar da. Təbii ki, nemətlərin şüuruna varan insan ramazanla yanaşı, başqa aylarını, günlərini də Rəbbinin istəyinə uyğun yaşamağa çalışar. Daha doğrusu, çalışmağa borcludur. "*(Ey camaatım!) Yadınıza salın ki, o zaman Rəbbiniz bunu bildirmişdi: "Əgər (Mənə) şükür etsəniz, sizə (olan nemətimi) artıracağam. Yox, əgər nankorluq etsəniz, (unutmayın ki,) Mənim əzabım, həqiqətən, şiddətlidir!*" ("İbrahim" surəsi, 14/7) ayəsi bir tərəfdən bizi rəhmətlə müjdələyir, digər tərəfdən də ilahi əzabla xəbərdarlıq edir. Mərhəmət və ya əzabın təcəllisi isə verilən nemətlərə şükür və ya nankorluqla düz mütənasibdir.

### *4. Oruc ictimai həyatı və onun reallıqlarını xatırladan bir ibadətdir*

İnsan fitrət etibarilə ictimai varlıqdır, Allah onu bu cür yaratmışdır. Və yenə Allahın hökmüdür ki, "ağalar və kölələr, varlılar və kasıblar, sağlamlar və xəstələr, cavanlar və yaşlılar..." cəmiyyətdə bir yerdə yaşayır. Cəmiyyətin fərqli təbəqələrinə məxsus bu insanlar bir-birinə möhtacdır və yardım etməyə borcludur.

9 İbn Macə, "*Siyam*", 1

Gəlin məsələyə oruc prizmasından baxaq. Maddi sıxıntılardan büsbütün uzaq yaşayanlar, süfrələri hər cür naz-nemətlə dolu olanlar aclıq və yoxsulluq içində çırpınan insanların halını tam anlaya bilməzlər. Bəli, oruc kimi külli bir ibadət vasitəsilə kasıbın halını anlayan imkanlı insan əgər şəfqət hissi ölməyibsə, sönməyibsə, insanlığı şikəst deyilsə, möhtacların köməyinə tələsəcək.

### *5. Oruc nəfsi tərbiyə edir*

Nəfs ruhun əleyhinə işləyən bir mexanizmdir. Bu konteksdə insan sırf bioloji varlıq olmaq istəmirsə, o zaman nəfsin arzu və istəklərinin qarşısına sədd çəkməlidir. Məhz bu mənada oruc "Nəfsi cilovlayan mühüm ibadətlərdən biridir. Ona görə də Haqq dostları riyazətlə ruhi-mənəvi səviyyələrini qorumağa çalışırlar".

Bir yandan da, nə vaxt baxsan ağzı işləyən, öyünlərini çeşid-çeşid yeməklərlə, çərəzlərlə keçirən bir insanın şəhvətinə düşkün olması normal haldır.

Bu səbəbdən də iradəni layiqincə ortaya qoyub nəfsin "qida kanallarını" bağlamaq lazımdır. Əks təqdirdə, nəfs daima şeytan üçün açıq qapıya çevrilər. Şeytan kimi nəfsdən də insana dost olmaz. Nəfs insanı pis əməllərə təşviq edən bir düşməndir və "*ən böyük cihad*" da məhz ona qarşı aparılmalıdır. Bunu dərk eləmək nəfsdən və şeytandan qurtulub, uzaqlaşıb Allaha (*c.c.*) yaxınlaşmaq istiqamətində atılmış mühüm addımdır. Peyğəmbərimizin (*s.a.s.*): "Sənin ən böyük düşmənin iki qaşın ortasındakı nəfsindir" və bir döyüşdən dönərkən: "İndi kiçik cihaddan böyük cihada gedirik"[10] buyurması bizi daima ayıq-sayıq olmağa çağıran nəsihətlərdir .

10 Kəşfül-Hafa 1/511; "*İhyau-Ülumiddin*", 3/10

Yoqaların ac-susuz qalmaqla ruhən güclənib qüvvətlənməyə çalışdığını hamımız bilirik. Hətta mistika ilə məşğul olan bəzi insanların da nəfsə əziyyətlər verməklə ruhən müəyyən səviyyəyə çatdıqları ta keçmişlərdən vardı. Ancaq nə yoqanın, nə də mistikanın axirətə heç bri faydası yoxdur. Çünki ac-susuz qalmaq, riyazət o zaman insana savab qazandırır ki, ibadət niyyəti ilə edilsin. Bu niyyət İslamiyyətdə oruc şəklində özünü göstərir. Oruc ibadəti niyyəti ilə edilməyən riyazət zamanı insan qeyri-adi hallar müşahidə etsə də, bu, əsl qayə və məqsəd deyildir, olmamalıdır da.

### *6. Oruc insana həqiqi mahiyyətini xatırladır*

İnsan ziddiyyətlər içərisində yaşayan bir varlıqdır. Əlindəki nemətləri itirmədikcə onların dəyərini qavramaqda çətinlik çəkir. Məsələn, çox vaxt xəstəlik gəlmədən sağlamlığın, qocalıq qapını döymədən cavanlığın, zəiflik beli bükmədən gücün, qüvvətin qədrini bilmir. Dünya malı əldə etdikcə, vəzifədən vəzifəyə yüksəldikcə özünü çox güclü, qüdrətli sayır, elə bilir ki, hər şeyi əldə etməyə gücü çatar. Halbuki, o, olduqca zəif, bir o qədər də aciz və yoxsuldur. Allah nemətini əsirgəsə, ac-yalavac ortada qalar. Bir mikroba əsir olar, bir fırtına, zəlzələ ilə hər şeyini itirər. İnsan məhz orucla başa düşür ki, şəfqətə, mərhəmətə, diqqət və qayğıya nə qədər möhtac varlıqdır. Oruc sayəsində anlayır ki, Rəbbi nemət verməsə, varlı, qüvvət verməsə, güclü ola bilməz. Və acizanə şəkildə İlahi dərgaha əl açıb yalvarır və şükür edən bəndəyə çevrilir.

### *7. Oruc sağlamlığa müsbət təsir edir*

Orucun sağlamlığa faydaları haqqında çoxlu tədqiqatlar aparılmışdır. Bu kitabça daha çox orucun fiqhi hökmləri ilə bağlı

olduğuna görə insan sağlamlığına müsbət təsirlərini mütəxəssislərin kitablarına həvalə edirik. Təfərrüatlı məlumat almaq istəyənlər bu cür kitablara müraciət edə bilərlər.

### *8. Oruc insanı günahdan qoruyan bir qalxandır*

Oruc bir təmrindir. İnsana cismani arzuları cilovlamaq keyfiyyəti aşılayır. Oruclu vaxtlarda hər cür mənfi istəklərdən, meyllərdən uzaq durmağı bacaran insan bu müqavimət hissi ilə oruc tutmadığı vaxtlarda da nəfsani arzularla mübarizə apara bilir. Beləliklə, "halal" məhvərli bir həyat yaşayır. Peyğəmbərimizin (*s.a.s.*) bir hədisini bu aspektdə götürmək mümkündür: "Kim mənə iki çənəsi ilə ayaqları arasını (dilini və şəhvətini) qoruyacağına təminat verərsə, mən də ona Cənnəti təminat verərəm".[11]

Allah Rəsulunun (*s.a.s.*): "Ey gənclər! Kimin evlənməyə imkanı çatırsa, evlənsin. Çünki evlənmək gözü də (haramdan), iffəti də son dərəcə qoruyur. Evlənməyə gücü çatmayan isə oruc tutsun. Şübhəsiz ki, oruc şəhvət hissinə güclü maneədir[12]",– sözləri bu mənada mütləq diqqətdə saxlanılmalıdır.

### *9. Oruc insana qənaətkar olmağı öyrədir*

Ürəyi istəyəni istədiyi vaxt eləməyə alışmış adam oruclu vaxtlarda bu qədər sərbəst ola bilmir. Məsələn, vaxtlı-vaxtsız yeməyə öyrəşmiş adam oruc tutduğu gün məcburən axşamın düşməsini gözləyir. Beləcə, gözləməklə, səbrini basıb dözməklə qənaəti öyrənir, plansız və məsuliyyətsiz həyatdan uzaqlaşmış olur.

---

11 Buxari, "*Riqaq*", 23
12 Buxari, "*Savm*", 10, Müslim, "*Nikah*", 1